


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 207 (23.849)

*6 noyabr 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul edib. Görüşdə “COVID-19-dan sonrakı dünya” adı altında VIII Qlobal Bakı Forumunun mühüm məsələləri müzakirə etmək baxımından çox vacib beynəlxalq tədbir olduğu bildirilib, Forumun yüksək səviyyədə təşkil olunduğu vurğulanıb.

* * *

Prezident İlham Əliyev noyabrın 5-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonu qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 5 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu ölümündən sonra təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun şəhid olmuş hərbi qulluqçuları da vardır:

**Sadıqlı Məmmədhəsən Meydan oğlu – baş leytenant**
“Azərbaycan Bayrağı” ordeni ilə,

**İsmayılov Əmrah Xudaverdi oğlu – gizir**

“Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilmişlər.

# Naxçıvanda Vətən müharibəsi şəhidlərinin ailələrinə və qazilərə mənzillər və avtomobillər təqdim olunub





Noyabrın 5-də – Zəfər Günü ərəfəsində 8 şəhid ailəsinə və 1 qaziyə mənzil, sağlamlıqları məhdudlaşmış 13 şəxsə isə avtomobil təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən 8 noyabrın Azərbaycanda Zəfər Günü olduğunu qeyd etmiş, əlamətdar gün ərəfəsində şəhidlərin əziz xatirəsinə ehtiramını bildirmişdir.

Ali Məclisin Sədri demişdir: 2020-ci ilin 27 sentyabr - 8 noyabr tarixlərində Azərbaycan işğal altındakı torpaqlarımızı azad etmək məqsədilə Vətən müharibəsinə başlamış və tarixi Qələbə qazanmışdır. Şanlı qələbəmiz ulu öndər Heydər Əliyevin yolunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində mümkün olmuşdur. Belə bir fikir vardır ki, döyüş meydanında qələbənin qazanılması üçün hərbi və iqtisadi güclə bərabər, Vətən sevgisi və milli birlik də vacibdir. Vətən müharibəsi Azərbaycanda lider-xalq-dövlət birliyinin daha bir ifadəsi oldu.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir”.*** İkinci Qarabağ müharibəsində Azərbaycan dövlətinin ən böyük gücü də iqtisadi və hərbi qüdrəti ilə yanaşı, həm də malik olduğu vətənpərvər insanları oldu. İgid oğullarımız əsl vətənpərvərlik nümunəsi göstərərək xalqımıza böyük Zəfər qazandırdılar. Bütövlükdə, Vətən müharibəsi Azərbaycan tarixinin Zəfər salnaməsinə çevrildi. Bu salnamə gələcək nəsillər üçün vətənpərvərlik, milli birlik və həmrəylik nümunəsidir.

“Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şəhid adı uca tutulur, şəhid ailələrinə və sağlamlığını itirmiş müharibə iştirakçılarına mənzillər və avtomobillər təqdim edilir. Zəfər Günü ərəfəsində Naxçıvanda şəhid ailələrinə və qazilərə yeni mənzillərin və avtomobillərin təqdim olunması da bu tədbirlərin davamıdır”, – deyən Ali Məclisin Sədri çıxışını ölkə Prezidentinin fikirləri ilə tamamlamışdır: ***“Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi... İndi isə bizim üçün yeni dövr başlayır – quruculuq dövrü... Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək”.***





Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim etmişdir.

*Ardı 2-ci səhifədə*





Şəhid atası Hümbət Rzayev və qazilər dövlətin onlar üçün yaratdığı şəraitə və göstərilən qayğıya görə minnətdarlıq etmişlər.

Mənzillə təmin olunan Aygül İbrahimova demişdir: "Həyat yoldaşım şəhid çavuş Ruzi İbrahimov 2018-ci ildə keçirilən Günnüt əməliyyatının iştirakçısı olmuş, İkinci Qarabağ müharibəsində isə Vətənə olan borcunu layiqincə yerinə yetirərək şəhidlik zirvəsinə yüksəlmişdir. Ölkəmizdə şəhid adı daim uca tutulur, onların ailə üzvlərinə diqqət və qayğı göstərilir. Bütün bunlara görə minnətdarlıq edirik".

Tədbir çay süfrəsi arxasında davam etmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

Şəhid ailələrinə verilən 2 və 3 otaqlı mənzillər Sədərək rayonunun Heydərabad, Kəngərli rayonunun Qıvraq qəsəbələrində, Şərur, Babək və Naxçıvan şəhərlərindəki yaşayış binalarında yerləşir. Tam təmir olunan mənzillərə mebel dəstləri qoyulmuş, lazımi kommunal şərait yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Zəfər Günü – milli qürurumuzun təntənəsi




***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə hər il 8 noyabr tarixi Azərbaycanda Zəfər Günü kimi qeyd olunur.***

Ümummilli lider Heydər Əliyev demişdir: ***"Torpaqlarımızın azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, müstəqil Azərbaycanın xoşbəxt günü gəlib çatacaqdır".*** Əminliklə demək olar ki, bu gün biz məhz həmin günü yaşayırıq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin yolunu uğurla davam etdirərək Azərbaycanı qüdrətli dövlətə çevirdi. Ümummilli liderin qoyduğu möhkəm təməl əsasında ölkəmiz ildən-ilə gücləndi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, qüdrətli ordu yaratdı. Məhz iqtisadi güc, rəşadətli ordumuz düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər Muzeyinin yaradılması haqqında" Sərəncamı isə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Ötən il sentyabrın 27-də başlayan və 44 gün davam edən haqq savaşında zəfər çalan Azərbaycan Ordusu təkcə ölkəmizdə deyil, bütün regionda yeni bir dönəmin əsasını qoydu. 30 ilə yaxın bir müddətdə erməni işğalında qalan torpaqlarımız məhz ordumuzun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlar hesabına azad edildi. Ərazi bütövlüyümüzün təmin olunması məqsədi daşıyan bu haqq savaşı Azərbaycan dövlətinin və xalqının mübarizə əzmini, hərbi, iqtisadi, siyasi qüdrətini nümayiş etdirdi. İllərdir, havadarlarının hərtərəfli dəstəyi ilə torpaqlarımızı işğalda saxlayan, beynəlxalq hüququn normalarına əməl etməyən ermənilər və onların "məğlubedilməz ordusu" cəmi 44 gün ərzində darmadağın edildi. Düşmən ordusu haqqında yaradılmış mif və nağılların təbliğat coğrafiyası o qədər geniş idi ki, hətta müharibədən sonra düşmən ölkənin əhalisi aylarla reallıqda nə baş verdiyini dərk edə bilmədilər.

Vətən müharibəsi, sadəcə, Azərbaycan Ordusunun arsenalında olan çoxsaylı müasir hərbi texnika və avadanlığın real döyüş şəraitində uğurlu nümayişi ilə yadda qalmadı. Bu müharibə həm də Azərbaycan əsgərinin, Azərbaycan xalqının Vətən, bayraq, torpaq sevgisi ilə düşüncələrdə iz saldı. Dövlət-xalq-ordu birliyi ordunun güc mənbəyinə çevrildi. Məhz bu Vətən sevgisi, həmrəylik nəticəsində düşmən döyüş meydanından silah-sursatını ataraq qaçmağa, təslim olmağa, aman diləməyə məcbur oldu.

Müharibənin ilk günlərindən Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən əməliyyatlar strateji yüksəkliklərin, Suqovuşan qəsəbəsinin və digər ərazilərin geri alınması ilə nəticələndi. Suqovuşan döyüşü İkinci Qarabağ müharibəsində ən əhəmiyyətli döyüşlərdən biri olmuşdur. Hər gün sarsıdıcı zərbələr endirən, dayanmadan irəli gedən ordumuzun qarşısında duruş gətirə bilməyən düşmən bu dəfə bütün beynəlxalq konvensiyalara zidd olaraq "S-300", "Smerç", "İskəndər" kimi böyük dağıdıcı gücə malik raketlərlə Azərbaycanın döyüş zonasından kənarda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Tərtər, Qəbələ, Yevlax və digər dinc yaşayış məntəqələrini atəşə tutdu. Nəticədə, mülki əhali arasında tələfat olmuş, təhsil və səhiyyə müəssisələri, sosial, mədəni, tarixi, dini obyektlər dağıdılmışdır. Bununla Azərbaycan xalqının və ordumuzun gözünü qorxutmağı düşünən düşmən yanıldı. Azərbaycan əsgəri mülki şəxslərə qarşı törədilən bu hərbi cinayətin qisasını düşməndən döyüş meydanında aldı. Tezliklə düşmənin hava hücumundan müdafiə vasitələrinin və radio-elektron mübarizə sistemlərinin məhv edilməsi Azərbaycan Silahlı Qüvvələrinin hava məkanında dominantlığına səbəb oldu. Artıq ordumuzun güclü həmlələri qarşısında tab gətirə bilməyən düşmən əsgərləri bu dəfə döyüş mövqelərini tərk edərək qaçmağa başladılar. Ordumuzun taktiki hərbi gedişləri zamanı düşmənin texniki və maddi təminatı tamamilə kəsildi. Digər ölkələrdən cəlb olunmuş muzdlulara, müharibə dövründə xaricdən daşınan hərbi sursatlara baxmayaraq, döyüşdən qaçanların sayı gündən-günə çoxalırdı. 44 gün ərzində havadarlarının vasitəsilə atəşkəsi bir neçə dəfə pozan, xarici ölkə liderlərinə hər gün yalvarıb-yaxaran erməni siyasi rəhbərliyi məğlubiyyətdən başqa heç nəyə nail ola bilmədi.

Vətən müharibəsində Ali Baş Komandan təkcə döyüş əməliyyatlarının aparılmasına nəzarət etmirdi, eyni zamanda Azərbaycanın haqq işinin dünya mediası tərəfindən düzgün, obyektiv işıqlandırılmasını təmin edirdi. Savaş müddətində Azərbaycanın haqq mübarizəsi ilə bağlı dünyanın ən məşhur media orqanlarına müsahibələr verən dövlət başçısı bununla həm də erməni lobbisinin yalan təbliğatını alt-üst edirdi. Təsadüfi deyil ki, illərdir, bu lobbi hesabına yanlış təbliğatla məşğul olan bir sıra məşhur media orqanları əməkdaşlarının hadisələrə qərəzli yanaşmaları cənab İlham Əliyevin obyektiv, sərrast, dəmir məntiqə əsaslanan cavabları ilə anındaca yerində oturdulurdu. Necə deyərlər, "Dəmir yumruq" təkcə döyüş meydanında deyil, həm də siyasi meydanda erməni yalanını ifşa edirdi.

44 gün ərzində, dövlət başçısının da ifadə etdiyi kimi, bir addım belə, geriyə addım atmayan ordumuz Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşanı azad etməklə müharibəyə son qoydu. Strateji baxımdan alınmaz yüksəklikdə yerləşən Şuşa şəhəri Azərbaycan əsgərinin misligörünməmiş qəhrəmanlığı, taktiki bacarığı, əlbəyaxa döyüşü ilə azad edildi. On minlərlə fərarisi olan, ordusunun 80 faizi məhv edilmiş düşmən bu dəfə diz çökərək kapitulyasiya aktını imzalamağa məcbur oldu. Şuşanın azad olunması xəbərini dövlət başçımız xalqa bu cür çatdırdı: ***"Mən bu gün, eyni zamanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"***

Beləliklə, Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata əsasən noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də isə Laçın rayonu bir güllə belə, atılmadan Azərbaycana təhvil verildi.

Üçtərəfli Bəyanatın 9-cu bəndində qeyd olunduğu kimi, regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, bölgədə yerləşən dövlətlərin vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə yaradılacaq dəhliz vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi bərpa olunur. Dəhliz region dövlətlərinin istifadəsi üçün zəmin yaradacaq.

Ötən il dekabrın 10-da keçirilən möhtəşəm Zəfər paradı isə Azərbaycanın hərbi gücünü və tarixi Qələbəmizi bütün dünyaya bir daha nümayiş etdirdi. Zəfər paradı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 gün davam edən "Dəmir yumruq" hərbi əməliyyatında qazandığı tarixi Qələbənin təcəssümü oldu. Paradda nümayiş etdirilən texnikalar dövlətimizin başçısı tərəfindən hərbi sahəyə göstərilən diqqət və qayğını nümayiş etdirdi. Hərbi paradda, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin xüsusi təşəbbüsü ilə Bakıda salınan Hərbi Qənimətlər Parkı isə qazanılan tarixi Zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.



Tarixi Zəfərimizin bir ili tamam olur. Ötən bir ildə Azərbaycan dövləti işğaldan azad olunmuş yaşayış məntəqələri ilə bağlı çox mühüm tədbirlərə başladı. 2021-ci il iyunun 15-də Şuşada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı. İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi rayonların bölgüsü haqqında" Fərman imzaladı. Fərmana əsasən Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocavənd, Şuşa və Tərtər rayonlarının daxil olduğu Qarabağ iqtisadi rayonu və Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarının daxil olduğu Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Oktyabrın 26-da isə Azərbaycan və Türkiyə liderləri Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etdilər. Həmçinin həmin gün dövlət başçıları Zəngəzur dəhlizinin – Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoydular. Hansı ki bu yol Naxçıvan Muxtar Respublikasını Azərbaycanın digər əraziləri ilə birləşdirəcək.

Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikasında da müdafiə təhlükəsizliyi ilbəil möhkəmləndirilir, hərbi hissələrin maddi-texniki təminatı gücləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır.Elə bunun nəticəsidir ki, Vətən uğrunda apardığımız savaşda Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti də əsl qəhrəmanlıq göstərdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu möhtəşəm qələbədən sonra Naxçıvana ilk səfərində Naxçıvan Ordusunun gücünü belə qiymətləndirdi: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin***

*Ardı 3-cü səhifədə*

***edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır”.***

Böyük Zəfərə aparan yolun başlanğıcı həm də 2016-cı ilin dördgünlük Aprel döyüşlərindən, Naxçıvanda keçirilən uğurlu Günnüt əməliyyatından, Tovuz döyüşlərindən keçdi. Ölkə başçısı Naxçıvanda olarkən demişdir: ***“...Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi...”***

Müharibələr itkisiz olmur. Bu müharibədə də şəhidlər verdik, qazilərimiz oldu. Lakin istər aktiv döyüşlərin getdiyi vaxt, istərsə də postmüharibə dövründə muxtar respublikaya gətirilən şəhidlərimiz elə hava limanında ən yüksək səviyyədə – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ehtiramla qarşılanaraq ailələrinə təhvil verildi. Şəhidlərin qarşılanma və dəfn mərasimləri müvafiq icra hakimiyyəti orqanları və çoxsaylı kütlə tərəfindən mütəşəkkilliklə həyata keçirildi. Digər tərəfdən şəhid ailələrinə, qazilərə, hərtərəfli dövlət dəstəyi göstərilir. Müharibədə iştirak etmiş hərbi qulluqçuların əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirildi, onlar müxtəlif adlara layiq görüldülər, orden və medallarla təltif olundular. Ölkə başçısının bu il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət etməsi, “Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında” Sərəncamı şəhidlərə və onların ailə üzvlərinə göstərilən ən yüksək diqqətin nəticəsidir.

*Bu gün işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri gedir. Ərazilər minalardan təmizlənir, yeni yollar salınır, körpülər, tunellər tikilir, yeni elektrik stansiyaları qurulur, innovativ layihələr həyata keçirilir. Bir çox dünya ölkələri tərəfindən də maraqla izlənilən bu tədbirlər Azərbaycan dövlətinin iqtisadi gücünü, nüfuzunu göstərir. Bununla yanaşı, ordu quruculuğu prosesi də davam edirilir, Silahlı Qüvvələrimizin arsenalı yeni silah və avadanlıqlarla təchiz olunur, müxtəliftəyinatlı hərbi təlimlərin keçirilməsi intensiv xarakter alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Ulu öndər Heydər Əliyev siyasi xətti ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. İqtisadi imkanlar artdıqca həyata keçirilən quruculuq işlərinin miqyası da genişlənir, yeni iş yerləri açılır. Eyni zamanda iqtisadi imkanlar imkan verdi ki, işğal altında olan torpaqlarımız azad olundu. Bu gün həmin ərazilərdə quruculuq işlərinin həyata keçirilməsinə başlanılıb, bu ərazilər də yaxın zamanlarda ölkəmizin abad, məhsuldar və gözəl guşələrindən birinə çevriləcəkdir”.***

**“Şərq qapısı”**

## Azərbaycanlılar Şuşada bundan sonra əbədi yaşayacaq




Otuz ildən çoxdur ki, tarixi torpaqları əlindən alınan sülhsevər xalqın səbir kasası daşdı. “Biz birlikdə güclüyük!” şüarı Qarabağın azadlıq çağırışına çevrildi. Vətən müharibəsi başlayan gündən ordumuz torpaqlarımızı düşməndən qarış-qarış aldı. Etiraf edək ki, hər birimiz Şuşanın düşməndən azad olunması xəbərini səbirsizliklə gözləyirdik. Ürəyimiz orada döyünürdü. İnanırdıq ki, Şuşa Azərbaycanın qəhrəman oğullarının şücaəti sayəsində yenidən bizə qayıdacaq. Hələ oktyabr ayında Türkiyənin “A Haber” televiziya kanalına verdiyi müsahibəsində Ali Baş Komandan deyirdi: ***“Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar”.***

Həmin günlərdə Azərbaycan əsgəri sıx meşələrlə, dağlarla döyüşə-döyüşə Şuşaya doğru irəliləyirdi. Mənfurların heç vaxt ağlına belə, gəlməzdi ki, Azərbaycan əsgəri dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək Şuşaya çata bilər. Uca dağların başında yerləşən şəhərə çatmaq üçün keçilməz yolları çəkində ağır, döyüşdə yüngül hesab edilən silahlarla günlərlə çörəksiz, susuz qalxdı dağ yuxarı Azərbaycan əsgəri. Belə Vətən sevgisinə dünya şahid olmamışdı. Dillərə dastan oldu igid oğullarımızın şücaəti. Dünya mətbuatı Azərbaycan əsgərinin igidliyindən, Şuşanın hansı çətin relyefdə, dumanlı dağları aşıb işğaldan azad etdiyindən yazdı. *“Belə döyüş, belə dövlət, belə Vətən sevgisi görən olubmu? Demək çətindir. Bir müxbir kimi dünyanın bir sıra ölkələrini gəzmişəm, müharibə zonalarını müşahidə etmişəm. Beləsini görməmişəm. Azərbaycan əsgəri dağ yuxarı, həlak olmuş yoldaşı çiynində, döyüşə-döyüşə, qan-tər içərisində qalxırdı. Nə yaralını, nə öləni əldən buraxmırdılar. Budur, vətənpərvərlik! Budur, Vətən sevgisi! Budur, torpağa bağlılıq!”*

Şuşanın azad edilməsi müharibənin dönüş nöqtəsi oldu. Bir payız səhəri yaz Günəşi doğuldu Şuşanın səmasında. O Günəşin şəfəqlərinin altında neçə-neçə igidin ruhu Şuşanın azad səmasında pərvazlandı. Şuşanın azadlıq günündən daha gözəl gün ola bilməzdi bu xalq üçün. Çünki həmin gün Şuşanın köksünə illərdir, sancılan, onun nəfəsini kəsən o yad cismi – erməni bayrağını qoparıb ayaqlar altına atdı igid oğullarımız. Əlində üçrəngli, ay-ulduzlu bayraq, əlində ulu öndərimizin ***“Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”*** kəlamı ilə Azərbaycan əsgəri Cıdır düzündə yallı getdi. Vaxtilə ermənilərin “Dağlarda toy” əməliyyatı ilə işğal etdikləri elə həmin dağlarda igid oğullarımız da onlara tarixboyu unuda bilməyəcəkləri toyu tutdu. Ali Baş Komandanın dediyi kimi, ***“İndi biz onlara elə toy tutduq ki, bu dərsi əbədi yadda saxlayacaqlar”.***

Noyabr ayının 8-i Zəfər Günü kimi tariximizə düşdü. Ali Baş Komandan Şuşaya qəhrəman əsgərlərimizin döyüşə-döyüşə azad etdiyi torpaqlarda açdığı yolla getdi və onu “Zəfər yolu” adlandırdı: ***“Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir. Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib”.***

### Möhtəşəm Zəfərin şəhərinə ilk səfər

Müzəffər Ali Baş Komandan Qarabağın tacı olan Şuşa şəhərinə ilk səfərini 2021-ci ilin yanvar ayında etmişdi. Bu həm də Azərbaycan Prezidentinin 2021-ci ildə regionlara ilk səfəri idi. 44 günlük Vətən müharibəsinin 42-ci günündə Şuşanın işğaldan azad olunması ən böyük hərbi-siyasi hadisə idisə, ilk daxili səfərin Şuşaya edilməsi də özlüyündə rəmzi əhəmiyyət, böyük məna kəsb edirdi. Müzəffər Sərkərdə üçün bu səfərin yanvarın 14-də gerçəkləşməsinin ayrı rəmzi mənası da var idi. Düz 39 il əvvəl, 1982-ci ilin 14 yanvarında Şuşada ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin açılışı olmuş və həmin tədbirdə cənab İlham Əliyev də iştirak etmişdi.

Bu səfərin ölkə başçısı üçün xüsusi bir tarixi önəmi həm də ondan ibarət idi ki, O, son 30 ildə Şuşaya səfər edən ilk Azərbaycan Prezidenti idi. Bu müqəddəs ünvana qalib, 44 günlük müharibənin Müzəffər Ali Baş Komandanı kimi gəlmişdi.

***“Bu dəfə Müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq!”*** – deyən Azərbaycan Prezidenti öz siyasi gücü ilə dünyaya Şuşadan mesaj verdi. Şuşaya şəhərin fatehi, İkinci Qarabağ müharibəsinin Müzəffər Ali Baş Komandanı kimi gəldiyi Qarabağın ürəyində, Şuşa şəhərində Azərbaycan bayrağını ucaltdı. Həmin anlar tarixin yaddaşına qızıl hərflərlə yazılmaqla yanaşı, düşmənə də gözdağı oldu.

### “Güllələnmiş heykəllər”in Şuşaya qayıdışı

Şuşa hər zaman tanınmış şəxsiyyətləri ilə seçilib. Şuşa Azərbaycanın bir çox ziyalılarının, o cümlədən şairlərin, yazıçıların yurdu olub. Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində digər ərazilərdə olduğu kimi, Şuşada da tarixi-mədəni abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri, Vaqifin məqbərəsi, şəhərdə yerləşən qədim məscidlər mədəni, tarixi, dini tikililər var. Ermənilər tərəfindən vandalizm aktına məruz qalan abidə və tikililərin bir hissəsi məhz ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə inşa edilmişdi. Prezident Şuşa səfərlərinin birində Xurşidbanu Natəvanın büstünü ümummilli liderimizin 1982-ci ilin yay aylarında açdığını deyir: ***“Mən də o vaxt atamla birlikdə burada idim. Bax buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və ulu öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi”.***

İllərdir, “Güllələnmiş heykəllər” adlandırılan Üzeyir Hacıbəyli, Bülbül və Natəvanın heykəlləri Azərbaycan Prezidenti cənab İlham Əliyevlə ailəsinin Şuşaya səfəri ərəfəsində doğma yurduna, layiq olduğu yerə geri qaytarıldı.

Şuşaya ikinci səfərində 2021-ci ilin mart ayında Novruz bayramı ərəfəsində bu qədim şəhərdə illər sonra bayram tonqalı qalandı. O yanan tonqal illərdir, Şuşasız üşüyən qəlbləri isitdi. Həmin səfər sonrası Şuşadan ayrılarkən dövlətimizin başçısı deyirdi: ***“Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşağıda da Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Bura isə Şuşa yarımstansiyasının binasıdır. Bu bina qısa müddət ərzində inşa edildi və Şuşanı dayanıqlı enerji ilə təchiz edəcəkdir. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı”.***

### “Xarıbülbül” musiqi festivalı Şanlı Qələbənin rəmzi kimi

7 may 2021-ci ildə Qarabağımızın almaz qaşı Şuşa Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə “Azərbaycanın Mədəniyyət Paytaxtı” elan edildi.

Mayın 12-də Azərbaycanın Mədəniyyət Paytaxtı 31 il sonra “Xarıbülbül” musiqi festivalına ev sahibliyi etdi. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşıladı. İllər sonra Qarabağ şikəstəsinin sədası Şuşa dağlarında əks-səda verdi. Biz qayıtmışıq doğma dağlar, sən bizimsən, əbədiyyən də bizim olacaqsan, öz doğmalarının, – dedi. Cıdır düzündə iki gün davam edən musiqi festivalında Vətənimizin bütün bölgələrindən olan musiqiçilər öz ifaları ilə biz birik, bütöv Azərbaycanıq, – dedilər. Ölkə başçısı çıxışında deyirdi: ***“Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk”.*** Həmin festival əziz bayramımız olan Ramazan ərəfəsində keçirildi. İştirakçılar Gövhər ağa məscidini ziyarət etdilər, namaz qılıb, Uca Tanrıya dualar oxudular. Həmin gün “Xarıbülbül” otelinin də açılışı oldu.

### 100 illik tarix və ya sarsılmaz birliyimizin növbəti nümunəsi Şuşada yenidən tarixiləşdi

Sonrakı səfər iyun ayında baş tutdu. Bu dəfə türk xalqının əziz oğlu, qardaş Türkiyənin Prezidenti Rəcəb Təyyib Ərdoğan da gözəl Şuşamıza qonaq gəlmişdi. Həmin səfər çərçivəsində Şuşada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın təkbətək görüşündən sonra “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzalandı. Həmin Bəyannamə tarixi 100 il bundan öncə imzalanan Qars müqaviləsinin davamı idi. Azərbaycan üçün çox önəmli bir tarixdə – Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra imzalanan Bəyannamə həm də böyük rəmzi məna daşıyırdı. Bu məna həm də sarsılmaz birliyimizi ifadə edirdi.

1921-ci ildə imzalanan Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyinin qarantı olan qardaş Türkiyə dövləti 100 il sonra – 2021-ci ildə Şuşa Bəyannaməsi ilə Qarabağın təhlükəsizliyinin də qarantına çevrildi. Həmin gün Cıdır düzündə Qarabağ atları şahə qalxdı. “Musiqi irsi və Qarabağ atları Cıdır düzündə” adlı musiqili kompozisiya izləyənləri valeh etdi. Zəfər adlı Qarabağ atı və xarıbülbül çiçəyi qardaş ölkənin başçısına hədiyyə edildi. Ölkə başçısının milli musiqimizin sədaları altında rəqs edən sənətkarlara qoşulması isə vaxtilə sərxoş halda Cıdır düzündə yallı gedən düşmən baş nazirinə tutarlı cavab oldu. Bu mənzərəni izləyən azərbaycanlıların ürəyi dağa döndü.

### Vətənin dörd bir yanından gələnlər gözəl Şuşanın seyrinə çıxıb Vaqif poeziyasının işığında nurlandılar

Avqustun 29-da Şuşa yenə qollarını açıb Müzəffər Sərkərdəsini qarşıladı. Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva şəhərdə bir sıra açılış və təməlqoyma mərasimlərində iştirak etdilər. Yenidənqurma işləri yekunlaşan “Qarabağ” otelinin, dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün, muzey-məqbərə kompleksinin, Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı oldu. Ölkə Prezidenti Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə də tanış oldu.

İncəsənət beşiyi olan Şuşada digər mədəniyyət ocaqları kimi, Bülbülün ev-muzeyi də erməni vandalizminin qurbanı olmuşdu. Lakin Bülbülün ev-muzeyinin və böyük incəsənət xadiminin yeni hazırlanan büstünün də həmin gün həyata yenidən qayıtdığı gün oldu. Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Şuşada “Hotel və Konfrans Mərkəzi”nin və yeni yaşayış massivinin təməli atıldı. 30 avqustda Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil edildi. Həmin tədbirdə çıxış edən dövlət başçısı deyirdi: ***“Buraya ilk səfərimdə ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər. Vaqifin içəridəki barelyefini, sinə daşını sökmüşdülər. Yəni onlara xas olan vandalizm törətmişdilər, necə ki azad edilmiş bütün başqa torpaqlarda biz bunun şahidiyik. Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürdü və bu gün biz bu məqbərənin önündə Vaqif Poeziya Günlərinə start veririk. Vaqif Poeziya Günləri də bərpa edildi”.***

Həmin gündən – o möhtəşəm zəfərdən bir il ötür. Bir ildə nələr oldu, necə dirçəldi işğaldan azad edilən torpaqlarımız buna şahidlik etdikcə qürurlandıq. Cənnətə döndükcə yurdumuz: ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tarixinizin rəmzidir”***, – deyən dahi rəhbərin ruhu şad oldu. Biz dahi şəxsiyyətin arzuladığı kimi Şuşaya qayıtdıq. O cənnət yurdumuzun hər saat, hər gün çiçəkləndiyinə şahidlik etdik. Ali Baş Komandanın dediyi kimi: ***“Görəcəklər ki, torpaq sahibinin əlində olanda cənnətə dönür”.*** İlahi ədalət bərpa edildi, Vətənimizin bir parçası olan Qarabağ, onun almaz qaşı Şuşa öz sahibinə qayıtdı. Və inanırıq ki, ulu öndərimizin də, cənnətimizin hər qarışı üçün canından keçən oğullarımızın da ruhu Şuşanın azad səmasında bir gözəl günləri görüb şad olur. Dahi şəxsiyyətin abidəsinin Şuşanın ən görkəmli yerində ucalacağı gün isə Qələbənin əsl təntənəsi olacaq.

**Ramiyyə ƏKBƏROVA**

## 8 Noyabr – Zəfər Günü ilə bağlı tədbirlər keçirilib



*Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində keçirilən tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin, Vətənimiz Azərbaycanın müstəqilliyi, suverenliyi, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş bütün Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov bildirib ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud şəkildə pozaraq müxtəlif növ ağır silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmuş, bunun nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olmuşdur. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi məqsədilə Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlanmışdır. Vətən torpaqlarını ilk saatlardan etibarən bir-bir işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistanın silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş, 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu tarixi Zəfər qazanmışdır.

İkinci Qarabağ müharibəsinin şanlı tarixi kimi, şanlı Qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldığını vurğulayan Bəxtiyar Əsgərov qeyd edib ki, Şuşanın azad edilməsi uğrunda qəhrəmanlıq dastanı yazmış fədakar vətən oğullarımız müstəqil Azərbaycanın böyütdüyü, yetişdirdiyi cəngavərlərin əsl vətən sevgisini bütün dünyaya nümayiş etdirdi. Bildirilib ki, müharibədə illərdir, Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünü qoruyan, ən müasir silahlar və hərbi texnikalarla təchiz edilmiş Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun fədakarlığı, döyüş meydanına xüsusi təlim keçmiş əlavə potensial döyüşçülərinin və silah-sursatının ön cəbhəyə göndərilməsi milli ordumuzun ən qısa zamanda məqsədinə nail olmasına güclü təkan vermişdir.



*Noyabrın 5-də muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Xatirə Muzeyi arasında "Zəfər tarixi" dərsliyi əsasında interaktiv dərs keçilib.*

İnteraktiv dərsi Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin əməkdaşı Emin Şıxəliyev aparıb. Emin Şıxəliyev qələbə qazandığımız 44 günlük Vətən müharibəsi barədə şagirdlərə ətraflı məlumat verib.

Bildirilib ki, Azərbaycan Ordusunun cəsur əsgər və zabitləri Ermənistanın 30 il ərzində qurduğu nəhəng istehkamları yarıb keçdi, düşmənin silahlı qüvvələrini darmadağın etdi. Dünyanın 50 ən güclü silahlı qüvvəsi sırasında yer alan Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən, sarsıdıcı zərbələr altında geri çəkilən işğalçı Ermənistanın silahlı birləşmələri yenə də öz çirkin ənənələrinə sadiq qalaraq müharibə cinayətləri törətməkdən çəkinmədilər. Bu hərbi cinayətlər və terror aktları Azərbaycan xalqının məğrurluğunu və iradəsini qıra bilmədi. Qəlbində Vətən sevgisi yaşadan igidlərimiz mənfur düşmənin layiqli cavabını verdilər.

Qədim Şuşa qalasının alınması tam qələbəmizi müjdələyən zəfər oldu. Azərbaycanın şanlı tarixinə parlaq, qürurverici 8 Noyabr – Zəfər Günü qızıl hərflərlə daxil oldu. Uzun illərboyu xalqımız bu tarixi ədalətin təntənəsini gözləyirdi. 44 günlük Vətən müharibəsi və



Naxçıvan şəhər 15 nömrəli tam orta məktəb

tarixi qələbəmiz Azərbaycan xalqının nəyə qadir olduğunu göstərdi. Bu inamlı tarixi qələbədə, 44 günlük zəfər yürüşündə Naxçıvandan cəbhəyə yollanan hərbi qulluqçuların xüsusi əməyi olmuş, onlar əsl qəhrəmanlıq nümayiş etdirmişlər. Döyüş meydanlarında böyük şücaət göstərən igid əsgər və zabitlərimiz Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə orden və medallara layiq görülmüşlər.

Emin Şıxəliyev bildirib ki, bu gün biz qalib ölkənin vətəndaşlarıyıq. Hər bir Azərbaycan vətəndaşı xoşbəxtdir ki, bu tarixi qələbənin şahidi oldu.

İnteraktiv dərs 200-dən çox ümumtəhsil məktəbində izlənilmişdir.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

* * *

*Naxçıvan Qarnizonu Qoşunlarında 8 Noyabr – Zəfər Gününün təntənəli şəkildə qeyd edilməsi ilə əlaqədar hazırlanan "Tədbirlər Planı"na əsasən növbəti tədbirlər Təlim-Tədris mərkəzlərində, Heydər Əliyev adına Hərbi Liseydə, Naxçıvan Qarnizonu tam orta məktəbində və uşaq bağçalarında keçirilib.*

Şəhidlərimizin əziz xatirəsinin yad edildiyi və Dövlət Himnimizin səsləndirildiyi tədbirlərdə çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan qələbədən, dövlət-xalq-ordu birliyindən danışıb, müharibə iştirakçıları öz döyüş xatirələrini bölüşüblər.

Heydər Əliyev adına Hərbi Liseydə keçirilən viktorinada kursantlar böyük həvəslə iştirak edərək birinci olmaq üçün yarışıb, viktorinanın sonunda qalib komandalar



mükafatlandırılıb.

Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri qələbəyə aparan yolu özündə əks etdirən səhnəcikləri canlandırıb və ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Naxçıvan Qarnizonunun "Nərgiz" və "Bənövşə" uşaq bağçalarında keçirilən tədbirlərdə hərbi şəhərciklərin ərazisində yürüş olub.

**Nəriman NƏCƏFOV**



## Zəfər Günün mübarək!

**Zəfər yolum heç də hamar olmayıb,**
**Raketlərin qanadında uçmuşam.**
**Gəzib Qarabağın dörd tərəfini,**
**Dəmir, polad qollarımla qucmuşam.**

**Qarabağım, toy-düyünün mübarək!**
**Azərbaycan, Zəfər Günün mübarək!**

**Gəlmişəm yuxudan oyadam səni,**
**Həsrətli illəri verək yellərə.**
**Yenidən yığışaq Cıdır düzünə,**
**Yallı getmək üçün verək əl-ələ.**
**Qarabağım, toy-düyünün mübarək!**
**Azərbaycan, Zəfər Günün mübarək!**

**Göylər də yandırıb çıraqlarını,**
**Bizimlə qeyd edir böyük zəfəri.**
**Ələnir qəlblərə sevinc yağışı,**
**Yuyur könüllərdən qəmi, kədəri.**
**Qarabağım, toy-düyünün mübarək!**
**Azərbaycan, Zəfər Günün mübarək!**

**Gözün-başın aydın, Arazım, Kürüm,**
**Gözün-başın aydın, Bakı, Naxçıvan.**
**Gözün-başın aydın, mavi Xəzərim,**
**Gözün-başın aydın, Can Azərbaycan.**
**Qürur günün, Zəfər Günün mübarək!**
**Ana Vətən, toy-düyünün mübarək!**

**Gözün-başın aydın, türk qardaşlarım,**
**Gözün aydın, Ali Baş Komandanım,**
**Sənin rəşadətin, şücaətinlə,**
**Yenidən doğuldu Azərbaycanım!**
**Doğum günün, Zəfər Günün mübarək!**
**Azərbaycan, toy-düyünün mübarək!**

**Rövşən HÜSEYNOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin oktyabr ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3262 | 241,4 | 241,4 | 100,0 |
| 2. | Şərur rayonu | 1980 | 140,2 | 140,2 | 100,0 |
| 3. | Babək rayonu | 1797 | 127,4 | 127,4 | 100,0 |
| 4. | Ordubad rayonu | 966 | 69,5 | 69,5 | 100,0 |
| 5. | Culfa rayonu | 833 | 63,7 | 63,7 | 100,0 |
| 6. | Kəngərli rayonu | 918 | 67,8 | 67,8 | 100,0 |
| 7. | Şahbuz rayonu | 455 | 32,8 | 32,8 | 100,0 |
| 8. | Sədərək rayonu | 505 | 35,8 | 35,8 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19507 | 1755,4 | 1762,1 | 100,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **30223** | **2534,0** | **2540,7** | **100,3** |

**Qeyd:** Oktyabr ayında texniki itki nəzərə alınmaqla verilən 30 milyon 223 min 400 kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 534 min manat olmuş, cəmi 2 milyon 540 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,3 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin oktyabr ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2480250 | 384534 | 384582 | 100,0 |
| 2. | Şərur rayonu | 826340 | 135307 | 135321 | 100,0 |
| 3. | Şahbuz rayonu | 293560 | 48184 | 48189 | 100,0 |
| 4. | Ordubad rayonu | 514665 | 84078 | 84084 | 100,0 |
| 5. | Culfa rayonu | 437862 | 72635 | 72638 | 100,0 |
| 6. | Babək rayonu | 849410 | 150363 | 150367 | 100,0 |
| 7. | Kəngərli rayonu | 321520 | 56003 | 56004 | 100,0 |
| 8. | Sədərək rayonu | 128515 | 19468 | 19468 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10644389 | 1694638 | 1640553 | 96,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16496511** | **2645210** | **2591206** | **98,0** |

**İtmişdir**

Naxçıvan şəhəri, Ağamalıoğlu küçəsi döngə 2, ev 6 ünvanında yaşayan Hüseynov Elşən Hüseynqulu oğlunun adına olan 2889 inventar nömrəli texniki pasport və MH-0015991 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 932